**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№362/6** **28 dekabr 2023-cü il**

**Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri" mövzusunda keçirilmiş elmi-praktik konfransın materiallarının nəşr etdirilməsi barədə**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri" mövzusunda 2023-cü il 27 oktyabr tarixində keçirilmiş elmi-praktik konfransın materiallar toplusunun (məruzə, çıxış, tezis və tövsiyələrinin) Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri" mövzusunda 2023-cü il 27 oktyabr tarixində keçirilmiş elmi-praktik konfransın materiallar toplusu bəyənilsin və nəşr olunması məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).

2. Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov, N.İsmayılov) tapşırılsın ki:

2.1. Toplunun 100 (yüz) nüsxədə nəşr olunması təmin edilsin;

2.2. Toplunun aidiyyəti qurumlara, konfransa məruzə və tezis təqdim edən şəxslərə, Palatanın struktur bölmələrinə, kitabxanasına və arxivinə razılaşdırılmış siyahı əsasında təqdim olunması təmin edilsin.

3. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu və vəzifələri" mövzusunda 2023-cü il 27 oktyabr tarixində keçirilmiş elmi-praktik konfransın təşkilində, müvəffəqiyyətlə keçirilməsində, habelə konfransın məruzə, çıxış, tezis və tövsiyələrinin toplu şəklində hazırlanmasında fəal iştitak edən şəxslər fərqləndirilsin.

4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**